Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

№ 56 (1184) 18 mart - 19 mart 2016-cı il

# KÜRDƏMİR: ARZULARIN İŞIĞINDA

> "...Görülən işlər ictimaiyyəti daha da ruhlandırır, böyük işlərə sövq edir ki, biz ölkəmizi daha da gücləndirək, daha da zənginləşdirək, insanlar rifah, sülh, təhlükəsizlik içərisində daha da yaxşı yaşasınlar və bundan sonra da dinamik inkişaf təmin edilsin".
>
> *Azərbaycan Respublikasının Prezidenti*
> *İlham Əliyev*

(əvvəli ötən saylarımızda)

**Rayonun Sığırlı kəndində "Azərişıq" ASC tərəfindən 2 ədəd yeni müasir tipli transformator quraşdırılmış, 1,5 km 10 kv-luq və 8,5 km 0.4 kv-luq hava xətti Sip kabellə əvəz olunmuş, 185 ədəd elektron tipli sayğac quraşdırılmışdır.**

Rayonun Şilyan, Qarasu , Qaramahmudlu, Şüşün, Qarasaqqal, Pirli, Təklə kəndlərində 8 ədəd yeni transformator quraşdırılmış.

10 kv-luq Göydəlləkli, "Kolxoz-2", ABZ, 28 may, "Şirvan" hava xətlərinin ümumulikdə 18,1 km hissəsi yenidən qurulmuşdur. Rayon ərazisində 19 ədəd elektrik transformatoru əsaslı, 24 ədəd isə cari təmir olunmuş, 5,8 km 10 kv-luq və 6,9 km 0,4 kv-luq hava xətləri yaşıl kütlədən təmizlənmişdir.

Dövlət Proqramına uyğun olaraq 2015-ci ildə təbii qazla təchiz olunmayan şəhərin ayrı-ayrı məhəllələrinin, kəndlərin qazlaşması işi davam etdirilmişdir. "Azəriqaz" İstehsalat Birliyinin Kürdəmir Xidmət Sahəsi tərəfindən cari dövrdə rayonun mövcud qaz alan yaşayış məntəqələrində təchizatın daha da yaxşılaşdırılması, normadan artıq qaz itkilərinin minimuma endirilməsi, payız-qış mövsümündə bütün kateqoriyalardan olan istehlakçıların təbii qazla fasiləsiz və stabil rejimdə təmin edilməsi istiqamətində və rayonun qaz almayan kənd yaşayış məntəqələrinin qazlaşdırılması sahəsində əhəmiyyətli işlər görülmüşdür.

Texniki vəziyyəti olduqca qeyri-qənaətbəxş olan, 45-ə yaxın əhali abonentini təbii qazla təmin edən Ağsu-Kürdəmir 273 mm diametrli orta təzyiqli qaz kəmərinin 4100 metrlik hissəsi istismardan çıxarılmış, 95 p/m yeni qaz kəməri çəkilərək əhali abonentləri təbii qazla təmin edilmişdir.

Rayonun Atakişili kəndində 330 metr uzunluğunda yeni yerüstü qaz kəməri çəkilmiş, şəhərin H.Qədirov, İ.Məmmədov küçələrində mövcud qaz kəmərlərinin yeni qaz xətləri ilə dəyişdirilməsi təmin edilmişdir. Qaz təchizatı sistemində texnoloji rejimlərin tələb edilən səviyyədə saxlanılması məqsədi ilə 7 ədəd şkaf tipli yeni qaztənzimləyici quraşdırılmışdır. Rayonun 62 yaşayış məntəqəsindən 45-i qazlaşdırılmış, 13 məntəqədə qazlaşdırma işləri başa çatmaq üzrədir. Ümumilikdə 16743 abonent təbii qazla təmin edilmişdir.

Rayonun qaz almayan kənd yaşayış məntəqələrinin qazlaşdırılması işləri 2015 ci ildə sürətlə davam etdirilmişdir. İl ərzində rayon ərazisində 22 kənddə təbii qazın açılışı təmin edilmişdir ki, bunun da nəticəsində rayon üzrə qazlaşma faizi 73,0-ə çatdırılmışdır. Rayonun Pirili, Beyi,Mollakənd Türkədi, Sovla, Muradxan, Mehtili, Qoçulu, Dayıkazımlı, Axtaçı-Qarabucaq, Çöl-Qubalı, Carlı və Quşlar kəndlərində tikinti işləri başa çatmaq üzrədir, yaxın günlərdə göstərilən kəndlərə təbii qazın açılışı təmin ediləcək, nəticədə rayon üzrə qazlaşma 90%-i keçəçəkdir.



2016-cı ildə rayonun qazlaşdırılmayan Qarabucaq qəsəbə, Qarabucaq, Qarasu və Qurd Bayram kəndlərində də qazlaşdırma işlərinə başlanacaqdır.

Dövlət Proqramına uyğun olaraq 2015-ci ildə şəhərin Babək, Sabir küçələrində və Cənub məhəlləsində müxtəlif diametrli polietilen borularla ümumilikdə 1837 p/m, Babək küçəsində "Hidroinşaatservis" MMC tərəfindən d-500 mm olan 1200 p/m uzunluğunda kanalizasiya xətti çəkilmişdir. 2015-ci ildə havaların şaxtalı keçməsi nəticəsində smart elektron tipli su sayğaclarının 200 ədədi sıradan çıxmış, yeni su sayğacları gətirilmiş və sıradan çıxmış sayğaclar yeniləri ilə əvəz edilərək işlək vəziyyətə gətirilmişdir.

Bakı şəhərindən kanalizasiya yuyan xüsusi texnika gətirilmiş, şəhərin H.Əliyev prospektində, Babək küçəsində, Sabir küçəsində, 20 yanvar küçəsində, Koroğlu küçəsində ümumi uzunluğu 3400 p/m olan kanalizasiya borularının içərisinin lili yumşaldılaraq axım bərpa edilmişdir.

2015-ci ildə 23235 nəfər əhaliyə su və kanalizasiya xidməti göstərilmiş, abonentlərdən su pulunun yığım məbləği 204759 manat olmuşdur.

2015-ci ildə çirkab suların şəhər ərazisindən kənarlaşdırılması üçün 1000 p/m uzunluqda Çöhranlı kollektoru qazılaraq təmizlənmiş, şəhərin Cənub məhəlləsində açıq kanalizasiya xətti ləğv edilərək 1,2-2 metr dərinlikdə qazılaraq d-300 mm olan polietilen boru ilə 1500 p/m uzunluqda yeni kanalizasiya xətti çəkilərək əhalinin istifadəsinə verilmişdir.

### *Təhsil, səhiyyə və mədəniyyət*

Rayonda təhsil, səhiyyə və mədəniyyət sahələrinin inkişaf etdirilməsi, mövcud problemlərin aradan qaldırılması ilə əlaqədar müvafiq tədbirlərin həyata keçirilməsi diqqət mərkəzində olmuşdur.

2015-ci tədris ilində məzunlardan 470 nəfəri ali məktəblərə qəbul olunmaq üçün Tələbə Qəbulu Dövlət Komisiyasına ərizə ilə müraciət etmiş, onlardan 186 nəfəri yüksək bal toplayaraq Repsublikanın ali təhsil müəssisələrinə, 77 nəfəri orta ixtisas müəssisələrinə qəbul olunmuşlar ki, bu da ötən ilki göstəricidən çoxdur. Qəbul olunanlardan 12 nəfəri 600, 24 nəfəri isə 500 baldan çox nəticə göstərmişlər. 157 çarpayılıq MRX-nin əsas binası Regionların Sosial iqtisadi inkişafı Dövlət Proqramına əsasən rekonstruksiya və əsaslı təmir edildikdən sonra xəstəxanada əhaliyə göstərilən tibbi xidmətin səviyyəsi və keyfiyyəti yüksəlmişdir. 2015-ci ildə ölkə Prezidentinin tapşırığına əsasən 103157 nəfər tibbi müayinədən keçirilmiş, bunlardan stasionarda müalicə alan xəstələrin sayı 230, ambulator xəstələrin sayı 1761 nəfər olmuşdur, həmçinin 107 nəfər xəstə müayinə və müalicə üçün Bakı şəhərinə göndərilmişdir. 2016-ci ildə də əhalinin tibbi müayinədən keçirilməsi davam etdiriləcəkdir.




Rayonda maddi və mədəni irsin qorunması və inkişaf etdirilməsi, əhalinin asudə vaxtının daha səmərəli təşkili, mədəni-kütləvi tədbirlərin kəmiyyət və keyfiyyətinin yüksəldilməsi istiqamətində davamlı olaraq tədbirlər həyata keçirilmişdir.

Rayon Uşaq İncəsənət məktəbi üçün binanin tikintisinə, rayon Mədəniyyət evinin və "Nizami" adına kinoteatrın əsaslı şəkildə yenidən qurulmasına ehtiyac vardır.

Azərbaycan Respublikasının Prezidenti Cənab İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasətin təbliği rayon İcra Hakimiyyəti Başçısı Aparatının apardığı ideoloji işin başlıca istiqamətini təşkil edir.

Heydər Əliyev Mərkəzində, yaradılmış təbliğat qrupunun və dərnəklərin fəaliyyəti təkmilləşdirilmiş, yeni ailə quran gənclərin nigah mərasimləri təşkil edilmişdir.

Təbliğat qruplarının hər həftə əhalinin müxtəlif zümrələri ilə görüşləri təşkil olunmuş, cənab Prezidentin həyata keçirdiyi siyasətin təbliği ilə bağlı məqsədyönlü ictimai-siyasi tədbirlər həyata keçirilmişdir. Heydər Əliyev Mərkəzində XI sinif şagirdlərinə "Ulu Öndər Heydər Əliyev irsini öyrənirik" mövzularında dərslər təşkil edilib keçirilmişdir.

***Məzahir ƏHMƏDOĞLU***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ